**2019-cu ilin xronikası**

**14 yanvar** tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərində keçiriləcək "Ümumdünya Ticarət Təşkilatının "Ticarətin Asanlaşdırılması Sazişi"nin gömrüklə bağlı müddəalarının tətbiqinə dair" subregional seminar çərçivəsində Bakı şəhərində səfərdə olan Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı qəbul etmişdir. Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriya Azərbaycan gömrük sisteminin nümunəvi bir qurum olduğunu və Ümumdünya Gömrük Təşkilatının standartlarına uyğun fəaliyyət göstərməsini yüksək qiymətləndirmişdir. Kunio Mikuriya xüsusilə Azərbaycanın korrupsiya ilə mübarizənin, beynəlxalq standartlara cavab verən texnologiyaların tətbiqinin və əlverişli biznes mühitinin yaradılmasının gömrük orqanlarının şəffaf fəaliyyəti üçün mühüm əhəmiyyət daşıdığını bildirmiş və görülən bütün bu işlərin onda böyük təəssürat doğurduğunu qeyd etmişdir. Prezident İlham Əliyev Azərbaycanda genişmiqyaslı islahatların qarşıdakı illərdə də davam etdiriləcəyini vurğulayaraq, ölkəmizin Ümumdünya Gömrük Təşkilatı ilə bundan sonra da səmərəli əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə etmişdir.



**15 yanvar** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Ümumdünya Ticarət Təşkilatının "Ticarətin Asanlaşdırılması Sazişi"nin gömrüklə bağlı müddəalarının tətbiqinə dair" subregional seminar keçirilmişdir. Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı (MARİƏ) çərçivəsində təşkil olunan tədbirdə Azərbaycan, Gürcüstan və Qazaxıstan gömrük xidmətlərinin, eləcə də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Ümumdünya Gömrük Təşkilatı, MARİƏ, BMT və Ümumdünya Ticarət Təşkilatının nümayəndələri iştirak etmişdir. Seminarın açılışında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya, Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov iştirak etmişlər.

**15 yanvar** tarixində Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində Abşeron Logistika Mərkəzi, Bakı Baş Gömrük İdarəsi, Aksizli Mallar üzrə Baş Gömrük İdarəsi və Dövlət Gömrük Komitəsinin Mərkəzi Hospitalının fəaliyyəti ilə tanış olmuşdur.

**16 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev İtaliya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Auqusto Massari və İtaliya Respublikasının Rusiya Federasiyasındakı Səfirliyində İtaliya

Maliyyə Qvardiyasının eksperti, general Klaudio Ramponi ilə görüşmüşdür. Görüşdə, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**23 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Türkmənistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mekan İşanqulıyevlə görüşmüşdür. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

**24 yanvar** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Türkiyənin Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin ölkəmizdəki nümayəndəliyinin (MÜSİAD) üzvləri ilə görüşmüşdür.




**28 yanvar** tarixində Bakı şəhərində, Ümumdünya Gömrük Təşkilatının Regional Tədris Mərkəzində gömrük tranzitinin asanlaşdırılması mövzusunda regional seminar keçirilmişdir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası arasında əməkdaşlıq çərçivəsində təşkil olunan tədbirdə Türkiyə, Azərbaycan, Qırğızıstan və ekspert qismində isə Gürcüstan nümayəndələri iştirak etmişdir.

**28 yanvar** tarixində Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatı Avropa Regionunun Potensialın Gücləndirilməsi üzrə Milli Əlaqələndirici Şəxslərinin iclası keçirilmişdir. ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində təşkil olunan iclasa Azərbaycan da daxil olmaqla, 20-yə yaxın iştirakçı ölkənin, eləcə də Ümumdünya Gömrük Təşkilatının nümayəndə heyətləri qatılmışdır. Tədbirdə əməkdaşlıq imkanlarının genişləndirilməsi, yeni yaranan problemlərin həlli, ticarətin asanlaşdırılması, təhlükəsizliyin təmin olunması və digər mövzular üzrə müzakirələr aparılmışdır.

**29 yanvar** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə direktor müavini xanım Brenda Mundiya ilə görüşmüşdür.

**29 yanvar** tarixində Dövlət Gömrük Komitəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Moldova Respublikası Maliyyə Nazirliyi yanında Gömrük Xidməti arasında ikitərəfli görüş keçirilmişdir.

**31 yanvar** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin ÜGT-nin dəstəyi ilə hazırladığı Elektron Tədris Platformasının təqdimatı keçirilmişdir. Təqdimat mərasimində

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, Komitə sədrinin müavinləri və Baş İdarə rəisləri, ÜGT-nin potensialın gücləndirilməsi üzrə direktor müavini Brenda Mundiya və bu qurumun Avropa region üzrə üzv dövlətlərinin nümayəndələri iştirak etmişlər.

**7 fevral** tarixində Cenevrə şəhərində BMT-nin Avropa İqtisadi Komissiyası (UNECE) çərçivəsində BYD kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında Gömrük Konvensiyasının (BYD Konvensiyası, 1975-ci il) İnzibati Komitəsinin (AC.2) 69-cu sessiyası keçirilmişdir. Sessiyada keçirilən seçkilərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndəsi BYD İcraiyyə Şurasına (TIREB) üzv seçilmişdir. 2019-2020-ci illər üçün BYD İcraiyyə Şurasının üzvlüyünə Azərbaycan nümayəndəsi ilə yanaşı, Rusiya Federasiyası, İran, Türkiyə, Ukrayna, Avropa Komissiyası, İtaliya, Polşa və Bolqarıstan nümayəndələri də seçilmişdir.

**11-12 fevral** tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynovun rəhbərliyi ilə nümayəndə heyəti Bolqarıstan Respublikasında işgüzar səfərdə olmuşdur. Səfər Bolqarıstan Respublikası Maliyyə Nazirliyinin Milli Gömrük Agentliyinin Baş direktoru Georgi Kostovanın dəvəti ilə baş tutmuşdur.

**18 fevral** tarixində Dövlət Gömrük Komitəsində komitənin əməkdaşları üçün Yeni Kompyuterləşdirilmiş Tranzit Sisteminin tətbiqində Türkiyə Respublikasının təcrübəsinin öyrənilməsi məqsədilə Türkiyə Ticarət Nazirliyinin ekspertləri tərəfindən təlim keçirilmişdir.




**19 fevral** tarixində Dövlət Gömrük Komitəsində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Böyük Britaniyanın Sərhəd Qüvvələri adından çıxış edən Daxili İşlər Departamentinin Dövlət Katibliyi arasında görüş keçirilmişdir. Görüşdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Böyük Britaniyanın Sərhəd Qüvvələri adından çıxış edən Daxili İşlər Departamentinin Dövlət Katibliyi arasında Böyük Britaniyanın sərhəd xidməti tərəfindən maliyyələşdirilən "Hunter" layihəsi çərçivəsində birgə bəyanat imzalanmışdır.

**27 fevral** tarixində Azərbaycan Respublikasının Astara şəhərində Azərbaycan və İran gömrük orqanlarının nümayəndə heyətləri arasında görüş keçirilmişdir. Görüşdə "BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında" Gömrük Konvensiyası (BYD Konvensiyası, 1975-ci il) ilə tənzimlənən prosedurlar çərçivəsində iki ölkə arasında tranzit əməliyyatlarının tam elektronlaşdırılmasını nəzərdə tutan "e-TIR Pilot" layihəsi müzakirə edilmişdir.

**28 fevral** tarixində İran İslam Respublikasının Astara şəhərində Azərbaycan və İran gömrük orqanlarının nümayəndə heyətləri arasında görüş keçirilmişdir. Görüşdə əsas məqsəd "BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında" Gömrük Konvensiyası (BYD Konvensiyası, 1975-ci il) ilə tənzimlənən prosedurlar çərçivəsində iki ölkə arasında tranzit əməliyyatlarının tam elektronlaşdırılmasını nəzərdə tutan "e-TIR Pilot" layihəsini müzakirə etmək olmuşdur.

**2 mart** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin nümayəndə heyəti Rusiya Federasiyasının Federal Gömrük Xidmətinin Tibbi Xidmət İdarəsinin dəvəti ilə Moskva şəhərində işgüzar səfərdə olmuşdur.



**4 mart** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Dövlət Gömrük Komitəsi üçün Sanitar və Fitosanitar Nəzarət (SPS) Tədbirlərinin İcrasında İdarələrarası Koordinasiya" üzrə seminar keçirilmişdir. Dövlət Gömrük Komitəsi və ABŞ Gömrük və Sərhəd Mühafizəsi Xidməti, Ümumdünya Ticarət Təşkilatı ilə birlikdə təşkil olunan seminarın məqsədi fitosanitar, sanitar və karantin, baytar nəzarəti sahəsində ABŞ-ın Kommersiya Hüququnun İnkişafı Proqramı (CLDP) çərçivəsində ən yaxşı təcrübələrin mənimsənilməsi, eləcə də beynəlxalq arenada istifadə olunan alətlərin öyrənilməsi olmuşdur.

**5 mart** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Böyük Britaniyanın Sərhəd Mühafizəsi Direktoratlığı ilə birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən "Hunter" layihəsi çərçivəsində Komitə sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov, Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Gömrük Risklərinin İdarəolunması və Audit Baş İdarəsinin rəisi Fərid Əliyev və müvafiq şöbələrin rəislərindən ibarət nümayəndə heyəti Avstriyanın Vyana və Belçika Krallığının Brüssel şəhərlərində səfərdə olmuşlar.

**11 mart** tarixində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində ÜGT ekspertləri tərəfindən "X-Ray aparatlarının təsvirlərinin oxunmasına dair təlimçilərin təlimi" adlı seminar keçirilmişdir. Seminarın keçirilməsində əsas məqsəd X-Ray aparatlarında xidmət göstərən gömrük orqanı əməkdaşlarının peşə biliklərinin artırılması və onların təlimçi kimi yetişdirilməsi olmuşdur

**11 mart** tarixində Qazaxıstan Respublikasının Astana şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin 7-ci iclası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil etmişdir.

**16 mart** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri Fərhad Dejpəsəndin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Görüşdə İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə də iştirak etmişdir.



**27 mart** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional ofisində Yaponiya Gömrük Xidmətinin ekspertləri tərəfindən Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Azərbaycanda gömrük laboratoriyalarının potensialının artırılması" mövzusunda seminar keçirilmişdir. Seminarın məqsədi Yaponiya və Azərbaycan gömrük laboratoriyaları arasında nəzəri biliklər və təcrübə mübadiləsi platformasının yaradılmasından, xüsusi analizlərin keçirilməsində müasir biliklərə yiyələnməkdən ibarət olmuşdur.

**28 mart** tarixində Tbilisi şəhərində Azərbaycan və Gürcüstan gömrük xidmətlərinin nümayəndələri arasında işçi görüş keçirilmişdir. Azərbaycan tərəfdən Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov və Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Dilavər Fərzəliyevin iştirak etdiyi görüşdə Gürcüstanı Gəlirlər Xidmətinin Baş direktoru Vaxtanq Laşkaradze, Gömrük Departamentinin rəhbəri Mamuka Djanqulaşvili və müavini Kaxaber Baramia təmsil etmişdir.

**28 mart** tarixində Xaçmaz şəhərində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Rusiya Federal Gömrük Xidməti Şimali Qafqaz Gömrük İdarəsinin səlahiyyətli nümayəndələri arasında növbəti işçi görüş keçirilmişdir.

**1-4 aprel** tarixlərində Brüssel şəhərində, Ümumdünya Gömrük Təşkilatının Baş Qərargahında bu qurumun Maliyyə Komitəsinin 102-ci sessiyası keçirilmişdir. Maliyyə Komitəsinin sessiyasına 18 ölkənin nümayəndələri qatılmışdır. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-

mayoru İsmayıl Hüseynov və Komitənin Gömrük Tariflərinin Tənzimlənməsi və Ödənişlər Baş İdarəsi rəisinin birinci müavini Xəqani Məmmədov iştirak etmişdir.

**15 aprel** tarixində Bakıda Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) işə başlamışdır. Dünyanın 150-dən çox ölkəsindən 500-dək nümayəndənin qatıldığı beynəlxalq konfrans mütəxəssislərin narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı mövcud olan müasir mübarizə üsullarından bəhrələnməsinə şərait yaradacaq.



**15 aprel** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Bakı şəhərində keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) çərçivəsində Ümumdünya Gömrük Təşkilatı Baş katibinin müavini Rikardo Trevino Çapa ilə görüşmüşdür.

**15 aprel** tarixində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və ABŞ-ın Ədliyyə Departamenti Narkotiklərlə Mübarizə Administrasiyasının nümayəndə heyətləri arasında, Bakı şəhərində keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) çərçivəsində görüş keçirilmişdir. Görüş Bakı şəhərində, Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) çərçivəsində baş tutmuşdur.

**16 aprel** tarixində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və İtaliya Respublikasının Daxili İşlər Nazirliyi İctimai Təhlükəsizlik Departamentinin Narkotiklərlə Mübarizə Agentliyinin nümayəndə heyətləri arasında Bakı şəhərində keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) çərçivəsində görüş keçirilmişdir.

**18 aprel** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Viktor Sederkenyinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

**22 aprel** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev İsrail Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav ilə görüşmüşdür.

**22 aprel** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti Amerika Birləşmiş Ştatlarında səfərdə olmuşdur.

**25 aprel** tarixində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin Konfransı keçirilmişdir. Beynəlxalq tədbirdə ölkəmizi Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

**3 may** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Türkiyənin Florence Nightingale Hastaneler Qrupunun icraçı direktoru Sinan Nazif Aran və Demiroğlu Bilim Universitetinin rektoru Çavlan Çiftçi ilə görüşmüşdür.

**6 may** tarixində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsində ölkədə səfərdə olan Türkmənistan Dövlət Gömrük Xidməti sədrinin müavini Dövlət Bayruyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

**8 may** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Avstriya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerl ilə görüşmüşdür.




**9 may** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ölkəmizdə səfərdə olan Türkmənistan Dövlət Gömrük Xidməti sədrinin müavini Dövlət Bayruyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

**21 may** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai ilə görüşmüşdür.

**21 may** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional ofisində ÜGT ekspertləri Rika Tokai və David Kozik tərəfindən "Təsnifat, mənşə və qiymətləndirmə üzrə ilkin qərar sisteminin inkişafı" mövzusunda seminar keçirilmişdir.

**22-23 may** tarixlərində Daşkənd şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və Ümumdünya Gömrük Təşkilatının Konteyner Daşımalarına Nəzarət üzrə Qlobal

Proqramı çərçivəsində 6-cı illik regionlararası görüş keçirilmişdir. Tədbirə Azərbaycan, Əfqanıstan, Gürcüstan, Qazaxıstan, Qırğız, Pakistan, Tacikistan, Türkmənistan, Ukrayna və Özbəkistan gömrük orqanlarının nümayəndə heyətləri, eləcə də BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMT NCİ), Ümumdünya Gömrük Təşkilatı (ÜGT) və digər beynəlxalq tərəfdaşların nümayəndələri qatılmışdır.

23 may tarixində Bakı şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərinin Gömrük Xidmətləri Rəhbərləri Şurasının Hüquq Mühafizə Bölmələri Başçıları Komitəsinin 19-cu iclası keçirilmişdir. Tədbirdə MDB üzv dövlətlərin - Azərbaycan, Belarus, Qazaxıstan, Qırğız, Rusiya, Tacikistan və Özbəkistan gömrük xidmətləri hüquq-mühafizə bölmələrinin başçıları, eləcə də müşahidəçi qismində Latviya və Estoniya gömrük xidmətləri hüquq-mühafizə bölmələrinin rəhbərləri, MDB üzv dövlətlərin Terrorizmə Qarşı Mübarizə Mərkəzi, Mütəşəkkil Cinayətkarlığa və Digər Təhlükəli Cinayət Növlərinə Qarşı Mübarizənin Əlaqələndirilməsi Bürosu və MDB sərhəd qoşunlarına rəhbərlik edən Şuranın əlaqələndirmə xidmətinin nümayəndələri iştirak etmişdirlər.

29 may tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ölkəmizdə səfərdə olan Belarus Respublikası Dövlət Gömrük Komitəsinin sədri Yuriy Senkonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.



29 may tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ölkəmizdə səfərdə olan Gürcüstan Maliyyə Nazirliyi Gəlirlər Xidmətinin rəisi Vaxtanq Laşkaradze ilə görüşmüşdür.

29 may tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ölkəmizdə səfərdə olan Ukrayna Dövlət Fiskal Xidmətinin sədrinin vəzifələrini icra edən Aleksandr Vlasovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

30 may tarixində Dövlət Gömrük Komitəsinin (DGK) əməkdaşları Alman-Azərbaycan Xarici Ticarət Palatasında (AHK) bu qurumun Vergi, Gömrük və Hüquq məsələləri üzrə işçi qrupu ilə görüş keçirmişdir. Görüşdə DGK Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəisi Səməd Qaralov, Komitənin aidiyyəti struktur bölmələrinin rəhbərləri, AHK-nın icraçı direktoru Tobias Baumann və palatanın 40-dan çox üzvü iştirak etmişdir.

10 iyun tarixində Bakı Biznes Mərkəzində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) ekspertləri tərəfindən "Məlumat Modeli" adlı regional seminar keçirilmişdir. Seminarda 17 ölkədən ekspertlər və nümayəndələr iştirak etmişdir. Seminarda ÜGT Məlumat Modelinin

qəbul edilməsinin strateji faydaları, gömrüklə bağlı qlobal gündəlik və məlumatların uyğunlaşdırılması, standartlaşmanın zəruriliyi barədə məlumatlandırma, smart sərhədlərin təmin edilməsi və digər mövzularda müzakirələr aparılmışdır.

10 iyun tarixində Bakı Biznes Mərkəzində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) ekspertləri tərəfindən ÜGT-nin "Qeyri-intruziv yoxlama üzrə Ekspertlər Qrupunun 5-ci iclası" keçirilmişdir.

11 iyun tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Dubay Gömrüyünün Baş direktoru Əhməd Mahbub Musabihin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

11 iyun tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Rezident Nümayəndəsi Alessandro Frakassetti ilə görüşmüşdür. Görüş çərçivəsində Dövlət Gömrük Komitəsi ilə BMTİP arasında bu qurumun dəstəyi ilə həyata keçirilən "Azərbaycan və Gürcüstan arasındakı "Qırmızı Körpü" sərhəd-keçid məntəqəsinin inkişafına texniki dəstək" layihəsinin vaxtının uzadılmasına dair saziş imzalanmışdır.

12-14 iyun tarixlərində Bakı şəhərində, Heydər Əliyev Mərkəzində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisi keçirilmişdir. Konfransda ÜGT-yə üzv 90-dan artıq ölkənin gömrük orqanlarının, eləcə də özəl və ictimai sektorun 450-ə yaxın nümayəndəsi iştirak etmişdir.



12 iyun tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev İran İslam Respublikasının iqtisadi məsələlər və maliyyə nazirinin müavini, İran Gömrük Administrasiyasının prezidenti Mehdi Mirəşrəfinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

12 iyun tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Bakı şəhərində keçirilən Ümumdünya Gömrük Təşkilatının (ÜGT) "İnformasiya Texnologiyaları, Texnoloji İnnovasiyalar Konfransı və Sərgisi" çərçivəsində "Huawei" şirkətinin Qlobal Hökumət işləri üzrə vitse- prezidenti Steven Şenqin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

12 iyun tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev İtaliya Gömrük Xidmətinin rəhbəri Benedetto Mineo ilə görüşmüşdür. Görüş Bakı şəhərində, Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisi çərçivəsində baş tutmuşdur.

13 iyun tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Bakı şəhərində keçirilən Ümumdünya Gömrük Təşkilatının (ÜGT) "İnformasiya Texnologiyaları, Texnoloji İnnovasiyalar Konfransı və Sərgisi" çərçivəsində "Nuctech" şirkətinin vitse-prezidenti San Şanqmin ilə görüşmüşdür.

13 iyun tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Bakı şəhərində keçirilən Ümumdünya Gömrük Təşkilatının (ÜGT) "İnformasiya Texnologiyaları, Texnoloji İnnovasiyalar Konfransı və Sərgisi" çərçivəsində Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Vladimir Qiyorqiyev ilə görüşmüşdür.

21 iyun tarixində Dövlət Gömrük Komitəsində "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Çin Xalq Respublikasının (ÇXR) İnkişaf və İslahatlar üzrə Dövlət Komitəsinin infrastruktur inkişafı Departamentinin nümayəndə heyəti ilə görüş keçirilmişdir.



24 iyun tarixində Dövlət Gömrük Komitəsi ilə Birləşmiş Millətlər Təşkilatının (BMT) Terrorla Mübarizə İdarəsi və Böyük Britaniyanın Sərhəd Mühafizəsi Direktoratlığı arasında "Hunter" layihəsi çərçivəsində Sərnişinlərə Dair İlkin Məlumat və Sərnişin Adlarının Qeydiyyatı üzrə "Go Travel" sisteminin tətbiqinə dair üçtərəfli görüş keçirilmişdir.

25 iyun tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

25 iyun tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Argentina Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunellanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

25 iyun tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Beynəlxalq Gömrük Universitetləri Şəbəkəsi (INCU) Katibliyinin rəhbəri Mixail Kaşubski ilə görüşmüşdür.

**27 iyun** tarixində Rumıniyanın Buxarest şəhərində Azərbaycan, Türkmənistan, Gürcüstan və Rumıniya arasında "Xəzər dənizi - Qara dəniz beynəlxalq nəqliyyat marşrutu" üzrə yaradılması planlaşdırılan dördtərəfli işçi qrupun ilk iclası keçirilmişdir. Görüşdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, Xarici İşlər, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirlikləri, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası, o cümlədən Türkmənistan, Gürcüstan və Rumıniyanın aidiyyəti qurumlarının nümayəndələri iştirak etmişdir.

**27 iyun** tarixində Brüssel şəhərində Ümumdünya Gömrük Təşkilatının Baş qərargahında Gömrük Əməkdaşlıq Şurasının növbəti 133/134-cü sessiyaları keçirilmişdir. Tədbirdə ölkəmizi Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.




**28 iyun** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Gömrük Əməkdaşlıq Şurasının 133/134-cü sessiyaları çərçivəsində Ümumdünya Gömrük Təşkilatının Baş Katibi Kunio Mikuriya ilə görüşmüşdür.

**28 iyun** tarixində Brüssel şəhərində keçirilən Gömrük Əməkdaşlıq Şurasının 133/134-cü sessiyaları çərçivəsində Dövlət Gömrük Komitəsi ilə ÜGT arasında "ÜGT-nin e-learning Modullarından istifadə üzrə Lisenziya" verilməsinə dair Razılaşma imzalanmışdır.

**29 iyun** tarixində Gömrük Əməkdaşlıq Şurasının 133/134-cü sessiyaları çərçivəsində Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevlə Avropa Komissiyası Vergi və Gömrük İttifaqının Beynəlxalq və Ümumi İşlər üzrə direktoru xanım Sabina Henzler arasında görüş keçirilmişdir. Görüşdə Azərbaycan gömrüyünün iki il müddətinə Gömrük Əməkdaşlıq Şurasının Avropa Regionu üzrə sədr müavini vəzifəsinə seçilməsi ilə bağlı fikir mübadiləsi aparılmışdır.

**1 iyul** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Avropa Regional Ofisində Birləşmiş Millətlər Təşkilatının (BMT) Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və ÜGT–nin birgə layihəsi olan "Qlobal Konteyner Daşımalarına Nəzarət Proqramı" çərçivəsində Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün növbəti təlim keçirilmişdir.

**1 iyul** tarixində Amerika Birləşmiş Ştatlarının Dövlət İxrac Nəzarəti və Əlaqədar Sərhəd Təhlükəsizliyi Proqramı çərçivəsində Dövlət Gömrük Komitəsinin, eləcə də Naxçıvan Muxtar

Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün Azərbaycan-Türkiyə birgə təlimi keçirilmişdir.

**4 iyul** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Moldova Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri George Leukanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.



**8 iyul** tarixində İsveçrənin Cenevrə şəhərində "BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üçün Xüsusi Proqramına (SPECA) dair ticarət üzrə yüksək səviyyəli seminar" keçirilmişdir. Seminarda iştirak edən nümayəndə heyətinin tərkibində Dövlət Gömrük Komitəsinin Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəisi Səməd Qaralov da təmsil olunmuşdur.

**11 iyul** tarixində Dövlət Gömrük Komitəsində Alman-Azərbaycan Xarici Ticarət Palatasının üzvləri ilə görüş keçirilmişdir. Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin, Komitə sədrinin müavinləri və aidiyyəti qurumların rəhbərlərinin, Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumannın və palata üzvlərinin iştirakı ilə keçirilən görüşdə qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi, gömrük sahəsindəki yeniliklərlə bağlı məsələlər müzakirə edilmişdir.

**13 iyul** tarixində Dövlət Gömrük Komitəsində Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının və Azərbaycan-İtaliya Ticarət Palatasının üzvləri ilə görüş keçirilmişdir. Biznesin inkişaf etdirilməsi mövzusunda keçirilən görüşdə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov, Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Baş İdarə rəisləri, "Societe General", "Suez", "Sigma Technical Services", "Total", CCİAF", "İCOG", "İTAREZCOM" və "Ekvita" konsaltinq şirkətlərinin nümayəndələri iştirak etmişdir.

**16 iyul** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ölkəmizdə səfərdə olan İsrail Dövlətinin Vergi İdarəsinin Baş direktoru Eran Yaakovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Görüşdə gömrük sistemində aparılan islahatlar, onların mahiyyəti və əldə olunan nəticələr barədə məlumat verilmiş, gömrük sahəsində əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə edilmişdir.

23 iyul tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Opun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

9 avqust tarixində Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının gömrük xidməti nümayəndələri arasında müştərək görüş keçirilmişdir. Şahtaxtı Gömrük İdarəsində təşkil olunan görüşdə İranın Yol təşkilatının nümayəndələri də iştirak etmişdir.

23 avqust tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Tacikistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Rustam Soli ilə görüşmüşdür.

26-28 avqust tarixlərində Müstəqil Dövlətlər Birliyi gömrük orqanlarının kinoloji xidmətlərinin və xidməti axtarış itlərinin çoxnövçülük üzrə 9-cu yarışları keçirilmişdir. Rusiya Federal Gömrük Xidmətinin Kinoloji Mərkəzinin bazasında təşkil olunan yarışlarda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzi də uğurla iştirak etmişdir. Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzi komanda hesabında I yerə, şəxsi hesabda II yerə, narkotik vasitələrin otaq şəraitində axtarışı mərhələsində I yerə, narkotik vasitələrin minik maşınlarında axtarışı mərhələsində II yerə, narkotik vasitələrin əl yüklərində axtarışı, narkotik vasitələrin yük avtomobillərində axtarışı və ümumi itaətetmə mərhələlərində isə III yerə layiq görülmüşdür.

11 sentyabr tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və "Huawei Tech. Azerbaijan" MMC arasında görüş keçirilmişdir. Görüşdə əməkdaşlığa dair niyyət protokolu imzalanmışdır. İmzalanma mərasimində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov, Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayev, Komitənin müvafiq strukturlarının rəhbərləri, Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin ticarət-iqtisadi məsələlər üzrə müşaviri Van Çunqan və "Huawei" şirkətinin təmsilçiləri iştirak etmişdirlər.

14 sentyabr tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Türkiyə Respublikası ticarət nazirinin müavini Qönçə Yılmaz Baturun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Görüşdə Azərbaycan və Türkiyə gömrük orqanları arasında əməkdaşlığın perspektivləri barəsində ətraflı fikir mübadiləsi aparılıb.

20 sentyabr tarixində Rusiya-Azərbaycan sərhədində yerləşən "Samur" gömrük postunda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Rusiya Federal Gömrük Xidməti Şimali Qafqaz Gömrük İdarəsinin səlahiyyətli nümayəndələri arasında növbəti işçi görüş keçirilmişdir.

23 sentyabr tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində DGK ilə Amerika Birləşmiş Ştatları Daxili Təhlükəsizlik Nazirliyi Gömrük və Sərhəd Mühafizəsi İdarəsinin nümayəndə heyətləri arasında Yük Hədəfləmə Sistemi mövzusunda görüş keçirilmişdir.

3 oktyabr tarixində Dövlət Gömrük Komitəsində Türkmənistanın müxtəlif dövlət qurumlarının nümayəndələri ilə "Ticarətin asanlaşdırılması, gömrüyün rəqəmsallaşdırılması və tranzit prosedurları sahələrində ən yaxşı təcrübənin mübadiləsi" mövzusunda görüş

keçirilmişdir. Türkmənistanın nümayəndə heyətinin ölkəmizə səfərinin məqsədi Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Aşqabaddakı Mərkəzinin təşəbbüsü ilə ticarətin asanlaşdırılması, gömrük prosedurlarının elektronlaşdırılması və tranzit əməliyyatları sahəsində Azərbaycan təcrübəsinin öyrənilməsidir.

**8 oktyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarp ilə görüşmüşdür.

**11-12 oktyabr** tarixlərində Ankara şəhərində keçirilmiş Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında Gömrük Məsələləri üzrə Birgə Komitənin üçüncü iclasında çərçivəsində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenatı Səfər Mehdiyevin rəhbərliyi ilə nümayəndə heyəti Türkiyə Respublikasında səfərdə olmuşdur. Nümayəndə heyətində Naxçıvan MR Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-mayoru Səhhət Həbibbəyli, eləcə də Dövlət Gömrük Komitəsinin aidiyyəti qurumlarının rəhbərləri də təmsil olunmuşlar.

**11 oktyabr** tarixində Türkiyə Respublikasının Ankara şəhərində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında Gömrük Məsələləri üzrə Birgə Komitənin üçüncü İclası keçirilmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin və Türkiyə Respublikası Ticarət nazirinin müavini Qonca Yılmaz Baturun rəhbərliyi ilə nümayəndə heyətlərinin iştirak etdiyi tədbirdə iki qardaş ölkənin gömrük orqanları arasında mövcud əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

**11 oktyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Ankarada Türkiyə Respublikasının Ticarət naziri Ruhsar Pekcan ilə görüşmüşdür. Görüşdə Azərbaycan və Türkiyə gömrük orqanları arasında əməkdaşlığın perspektivləri barəsində ətraflı fikir mübadiləsi aparılıb.



**15 oktyabr** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Böyük Britaniyanın Sərhəd Mühafizəsi Direktoratlığı arasında həyata keçirilən "Hunter" layihəsi çərçivəsində gömrük əməkdaşları üçün "Sərnişinlərə dair ilkin məlumat (APİ) və Sərnişin adlarının qeydiyyatı (PNR) sahəsi üzrə hədəflərin müəyyənləşdirilməsi" mövzusunda dördgünlük seminar keçirilmişdir.

**16 oktyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev İsveçrə Konfederasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri xanım Müriel Peneveyre ilə görüşmüşdür, Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**17 oktyabr** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakıda yerləşən Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Karvansaray" layihəsi çərçivəsində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv dövlətlərin gömrük xidmətlərinin ekspertlərinin texniki iclası keçirilmişdir. İclasda Dövlət Gömrük Komitəsinin nümayəndələri və TDƏŞ üzv dövlətlərin gömrük xidmətlərinin ekspertləri iştirak etmişlər. İclasın keçirilməsində məqsəd TDƏŞ üzv dövlətlərin gömrük məntəqələrində tətbiq edilən yenilikləri öyrənmək, bununla bağlı müzakirə və araşdırmalar aparmaq, eləcə də növbəti iclasın gündəliyini hazırlamaq olmuşdur.

**21 oktyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Xuan Rodriqo Labardini Floreslə görüşmüşdür. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb, əməkdaşlığın perspektivləri müzakirə edilmişdir.




**29 oktyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Kolumbiya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Luis Antonio Dimate Kardenasın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

**29 oktyabr** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Saxta və kontrafakt məhsullara qarşı mübarizə strategiyası və məhsulların identifikasiyası" mövzusunda gömrük əməkdaşları üçün seminar keçirilmişdir. Seminarda Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov, REACT-ın Şimal-Şərqi Avropa və Orta Asiya regional direktoru Kazimieras Sarzickas, REACT-ın Azərbaycandakı nümayəndəsi Nəriman Ramazanov, xarici şirkətlərin nümayəndələri və gömrük əməkdaşları iştirak etmişdir.

**4 noyabr** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Türkiyənin Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) İzmir şöbəsinin nümayəndə heyəti ilə görüşmüşdür.

6 noyabr tarixində Dövlət Gömrük Komitəsində Amerika Birləşmiş Ştatlarının (ABŞ) Narkotiklərlə Mübarizə Administrasiyasının nümayəndə heyəti ilə komitə rəhbərliyi arasında görüş keçirilmişdir.

7 noyabr tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Dünya Bankının Azərbaycandakı daimi nümayəndəliyinin rəhbəri Navid Həsən Naqvinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

8 noyabr tarixində Dövlət Gömrük Komitəsində Tacikistan Respublikasının sərhəd idarəçiliyi sahəsində çalışan yüksək vəzifəli şəxslərindən ibarət nümayəndə heyəti ilə "Gömrük-sərhəd buraxılış məntəqələrinin fəaliyyətinin təşkili üzrə qabaqcıl təcrübələrin öyrənilməsi" mövzusunda görüş keçirilmişdir.

19 noyabr tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev BP şirkətinin vergi məsələləri üzrə baş direktoru xanım Yan Lyonsun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

25 noyabr tarixində Dövlət Gömrük Komitəsinin rəhbərliyi və Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının üzvləri arasında "Gömrük sistemində aparılan islahatlar, biznes əməkdaşlığı və perspektivlər" mövzusunda görüş keçirilmişdir.

20-22 noyabr tarixlərində Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 70-ci iclası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynovun başçılıq etdiyi nümayəndə heyəti təmsil etmişdir.

28 noyabr tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Hindistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vanlalvavna Bavitlunq ilə görüşmüşdür.

29 noyabr tarixində Dərbənd şəhərində Azərbaycan və Rusiya sərhədyanı gömrük orqanlarının nümayəndələri arasında növbəti işçi görüş keçirilmişdir. Görüşün sonunda Azərbaycan Respublikası və Rusiya sərhədyanı gömrük orqanlarının nümayəndələri iclasın yekunlarına dair Protokol imzalanmışdır.

3-5 dekabr tarixlərində Koreya Respublikasının Seul şəhərində Ümumdünya Gömrük Təşkilatı Siyasi Komissiyasının 82-ci sessiyası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

9 dekabr tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Rusiya Federasiyası Federal Gömrük Xidməti rəhbərinin müavini Andrey Strukov ilə görüşmüşdür.

**11 dekabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Qətər Dövlətinin Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab ilə görüşmüşdür.

**17 dekabr** tarixində Dövlət Gömrük Komitəsində "Yüklərin Hədəflənməsi Sisteminin tətbiqi" mövzusunda görüş keçirilmişdir. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov, Dövlət Gömrük Komitəsi sədrinin müavinləri, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev və gömrük xidməti general-mayoru Cavad Qasımov, Baş İdarə rəisləri, aidiyyəti qurumların əməkdaşları və Ümumdünya Gömrük Təşkilatının Karqo Hədəf Sisteminin layihə menecerləri iştirak etmişdir.

**20 dekabr** tarixində Bakı şəhərindəki Heydər Əliyev Mərkəzində Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə Xarici Ticarət İştirakçılarının "Gömrük sahəsində islahatlar: "Yaşıl dəhliz" sisteminin tətbiqinin nəticələri və perspektivlər" mövzusunda 2-ci Respublika Forumu keçirilmişdir.

